Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Yazılsın tarixə qəhrəman adın

**Mehdi Hüseynzadənin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Yazılsın tarixə qəhrəman adın:** Mehdi Hüseynzadənin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K.Ağazadə. – Bakı: F.Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018.- 27 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

# Tərtibçidən

Müharibələrin tarixi bəşəriyyətin yaranışından başlanır. Və heç bir müharibə insanlara və bəşəriyyətə xoşbəxtlik gətirməyib. Əksinə, dava qurtaranda sevinib, bayram edirdilər ki, şərin, zorun kökü kəsildi. Hələ eramızdan əvvəl V əsrdə yaşamış, "Tarixin atası" sayılan Herodot yazırdı: "Hətta ağılsızlar arasında belə müharibə istəyən olmamalıdır. Çünki dinclik olanda atalar övladlarının çiynində aparılaraq dəfn edilirlər, müharibə olduqda isə atalar övladlarını dəfn etməli olurlar". Həm ibrətamiz, həm də çox obyektiv qiymətləndirmədir. Müharibə fəlakət, qan-qada, sitəm deməkdir.

Bəşər tarixində dünya ağalığı iddiasına düşənlər çox olub. Onlar adi adamlar olmayıblar. Fitri hərbi istedada, möhkəm iradəyə, aydın məqsədə və xüsusi bacarığa sahib olublar. İkinci Dünya müharibəsini də başlayan, dünya ağalığı iddiasına düşən Adolf Hitler cavanlığında çox adi bir hərbiçi kimi diqqət cəlb etməsə də, sonradan onun daxilində böyük sərkərdəlik məharəti gizləndiyi ortaya çıxdı. Lakin bu bacarıq, istedad cəmiyyətin inkişafına, insanların xobəxtliyinə yönəlmədi. Bu bacarıq Hitlerdə qandan doymamaq, insanların zülmündən həzz almaq duyğularını formalaşdırdı. Və Hitleri özündən əvvəl fatehlik iddiasına düşənlərin aqibəti də düşündürmədi. Sonra isə millətlərə fəlakət bəxş etdiyi kimi, öz xalqına da faciə gətirdi. Dünya xalqlarını faşist əsarəti təhlükəsindən xilas etmiş sovet silahlı qüvvələri haqqında həmişə böyük minnətdarlıq hissi ilə danışılır. O vaxtlar ittifaqın bütün millətlərinin birliyi və dostluğu Böyük Vətən müharibəsinin ən ağır sınağından çıxmışdır. Bu müharibədə sovet xalqının öz azadlıq və istiqlaliyyəti uğrunda apardığı ədalətli müharibə idi. Azərbaycan xalqı da digər xalqlarla vahid sırada dayanmışdı. Sovet hökuməti Azərbaycan oğul və qızlarının əmək

qəhrəmanlığını, döyüş igidliyini və mərdliyini yüksək qiymətləndirmişdir.

Böyük Vətən müharibəsi illərində Azərbaycandan minlərlə kilometr uzaqda – Adriatik dənizi sahillərində adı əfsanəyə dönmüş qəhrəmanlardan biri də Mehdi Hüseynzadədir. Onun haqqında söhbət düşəndə əksəriyyət əsl adı və soyadından çox faşistləri lərzəyə salan "Mixaylo" sözünü daha çox işlədir. Onda hansı Mehdidən, hansı qəhrəmandan danışdığı dərhal məlum olur. Bu il Mehdi Hüseynzadənin doğumundan yüz il, bir əsr keçməkdədir. Biz də öz növbəmizdə Mehdi Hüseynzadənin 100 illik yubileyi münasibətilə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə "Cəbhələrdən zəfərlərlə aşa-aşa, sən Berlində döyüşünü vurdun başa..." adlanır və M. Hüseynzadənin həyatından bəhs edir. II hissədə isə onun mübarizəsindən bəhs edən tədbirlərdən söhbət açılır.

## Mübariz döyüşçünün həyat yolu

Mehdi Hənifə oğlu Hüseynzadə 22 dekabr 1918-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur. Atası Hənifə Hüseynov (1881–1922) Hümmət təşkilatının üzvü olub, Azərbaycanda Sovet rejiminin qurulması üçün çalışan fəal döyüşçülərdən idi. Daha sonra o Azərbaycan milisinin rəisi olmuş, ölkə ərazisində banditizmə qarşı mübarizə aparmış, həyatının sonlarına yaxın Bakı Sovetinin inzibati şöbəsinin müdiri olmuşdur. Erkən yaşda atasını itirən Mehdi əvvəl anası, sonra isə bibisi tərəfindən böyüdülmüşdür.

1925-ci ildə o, yazıçı Süleyman Sani Axundovun direktoru olduğu 77 saylı natamam (7 illik) orta məktəbə (sonradan 19 saylı orta məktəb olmuşdur) daxil oldu. Mehdinin ilk müəllimi bəstəkar Səid Rüstəmov idi. 1932-ci ildə o, orta məktəbi bitirərək Bakı Rəssamlıq məktəbinə daxil olmuşdur. Burada o, Kazım Kazımzadə, Əsgər Abbasov, Əli Zeynalov, Mürsəl Nəcəfov ilə birlikdə oxumuşdur. 1936-cı ildə buranı bitirmişdir. Onun diplom işinin mövzusu Qırmızı Ordu əsgərlərinin həyatı barədə idi və o, bu rəsmini "Qırmızı Ordu əsgərləri düşərgələrdə" adlandırmışdı. Məktəbi bitirdikdən sonra Mehdi Suraxanıda ibtidai məktəblərdən birinə müəllim kimi göndərildi. O, burada bir neçə ay işlədi. Bununla yanaşı o, Abbas Səhhət adına kitabxanada oxu zalının rəhbəri kimi də işləyirdi. Daha sonra Mehdi İncəsənət Akademiyasına qəbul olunmaq üçün Leninqrada getdi. Akademiyaya daxil ola bilmədikdən sonra o, Bakıya qayıtmış və burada Məşədi Əzizbəyov adına kitabxanada iş tapmışdır. Bir ildən sonra o yenidən Leninqrada gedib, lakin bu dəfə qəbul ola bilməmişdir. Amma Leninqrad Xarici Dillər İnstitutunda Fransız dili fakültəsinə daxil olmuşdur. 1940-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinin ikinci kursuna köçürülüb. Onun bu

instituta keçməsinin səbəbi poeziyaya və ədəbiyyata olan sevgisindən irəli gəlirdi.

22 iyun 1941-ci ildə Almaniya müharibə elan etmədən SSRİ-yə hücum etdi. Mehdi Hüseynzadənin ailəsi müharibə elanından Şüvəlandakı bağlarında xəbər tutdu. Kiçik bacısı Hürriyət Əzizbəyovanın xatirələrində deyilir ki, bibisi qardaşı oğlunu bağda qalmağa inandırmağa çalışırdı. Mehdi isə onun çiyinlərini qucaqlayaraq dedi: "Mən bağda qala bilmərəm. Birdən mənə hərbi komissarlıqdan çağırış gələr və mən isə evdə olmaram. Mən Komsomol üzvüyəm. Mənim vəzifəm Vətəni müdafiə etməkdir". Bundan sonra o, hərbi çağırışı gözləmək üçün şəhərə gedir. Artıq 9 avqustda M.Hüseynzadə hərbiyə gedir.

Mehdi Hüseynzadə həm şəkil çəkir, tar çalır, şeir yazır, həm də minatəmizləmə işini bilirdi, yüksək məharətlə maşın sürürdü. M.Hüseynzadənin dostu, sonralar isə Azərbaycan Rəssamlar İttifaqının katibi M.Tərlanovun dediklərinə görə onun ən sevdiyi şairlər Hüseyn Cavid, Mikayıl Müşfiq, Səməd Vurğun və Süleyman Rüstəm idi.

Mübariz döyüşçünün – Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, dəyirmi masa, səhnəcik və səhərciklər, oxucu konfransı, oxucularla söhbət, rəsm və şeir müsabiqəsi və s. keçirilə bilər. Bu yenilməz cəngavərimiz Mehdi Hüseynzadə şücaətini gənc nəslə və şagirdlərə tanıtmaq və eyni zamanda oxucularda mütaliə vərdişi aşılamaq məqsədi daşıyır. Mehdi Hüseynzadənin 100 illik yubileyi ilə əlaqədar kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər. *"Bəşər tarixinin ən mühüm hadisəsi", "Vətən uğrunda vuruşanlar", "Tarixlərə şərəf verən insanlar", "O, qəhrəman idi", "Yazılsın tarixə qəhrəman adın", "Qəhrəmanlıq bütün zamanlarda örnəkdir", "Bilsin ana*

*torpaq, eşitsin vətən", "Bir ömrün səhifələrində", "Azərbaycanın qızıl ulduzları", "Dillərdə gəzən qəhrəman", "Qəhrəman və Partizan" və s.*










Əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar olaraq, *"Tarixin mübariz adı Mixaylo*" adlı **dəyirmi masa** təşkil etmək olar. Dəyirmi masa zamanı tələbələr Mehdi Hüseynzadənin bir mübariz, yenilməz döyüşçü kimi həyatdakı rolu, mövqeyindən bəhs edirlər.

***Kitabxanaçı:*** Mehdi Hüseynzadə Tiflis hərbi-piyada məktəbini bitirdikdən sonra, 1942-ci ildə onu cəhbəyə göndərdilər. Bu dövrdə şiddətli döyüşlər gedirdi. O, minaatanlar tağımının komandiri vəzifəsində Stalinqrad döyüşündə iştirak etmişdir. Stalinqraddan kiçik bacısına yazdığı son məktubda deyilirdi: "Cəbhədən yazıram. Burada qəddar döyüşlər gedir. Faşistlərin qəddarlığını təsvir etmək çətindir. Onlar heç bir alçaq üsuldan çəkinmirlər. Sabah hücuma keçirik. Mən sizə söz verirəm ki, son damla qanıma qədər vuruşacağam, sizi əmin edirəm ki, mən qəhrəmancasına döyüşəcəyəm, sizin başınızı ucaldacağam, ölsəm də qəhrəmancasına öləcəyəm! Mənim barəmdə eşidərsiniz, hələlik sağ olun. Bu mənim son məktubumdur!".

1942-ci ilin avqustunda Kalaç şəhəri ətrafındakı qanlı vuruşmaların birində ağır yaralanaraq, almanlara əsir düşdü. Orada o, Cavad Həkimli və digərləri ilə bərabər Azərbaycan legionuna salındı. 1943-cü ilin ortalarında almanlar Ştrans (Almaniya) hərbi düşərgəsindən Yuqoslaviyanın, Triestin və İtaliyanın ərazisinə böyük miqdarda hərbi əsirlər, o cümlədən azərbaycanlılar gətirdilər. Hələ Almaniyada olarkən Sovet hərbi əsirləri gizli antifaşist təşkilatı yaratmışdılar. Onların İtaliya və Yuqoslaviya partizanları ilə əlaqəsi var idi. Mehdi Hüseynzadə bu təşkilatın fəal üzvlərindən biri idi. 1943-cü ildə azərbaycanlı əsirlərin düşərgəsinin Şimali İtaliyada Udinə yaxın bir yerdə yerləşdiyi zaman o, alman komandanlığının ştabından "Harribaldçılar" partizan dəstəsinə qəfil hücum planını əldə etməyə müyəssər oldu. Partizanlarla gedib çıxmağı bacaran antifaşistlər (Rəşid Kərimov və Həsən Cabbarov) bu haqda onlara məlumat verdilər və partizanlara hücum edən polk Tolmin-Kobarid ətrafında böyük itkilər verərək geri çəkilməyə məcbur oldu. Antifaşistlərin özü isə nasistlər tərəfindən ələ keçirildi və öldürüldü.

1944-cü ilin əvvəlində Mehdi Hüseynzadə bir qrup yoldaşları ilə İtaliyadakı düşərgədən qaçdı və Yuqoslaviya Xalq Azadlıq Ordusunun Sloven Sahilyanı 9-cu korpusunda fəaliyyət göstərən partizanlara qoşuldu. Burada azərbaycanlılardan ibarət İvan Qradnik adına 3-cü Sloveniya xalq-azadlıq briqadası 4-cü batalyonunun rus rotası yaradıldı. Rotanın komandiri Cavad Həkimli, komissarı Mehdi Hüseynzadə oldu. Rota Aydovşçina şəhərindən şimal istiqamətində Angel dağı ətəyində yerləşən Otliça kəndində məskən salmışdı. Bu zamandan başlayaraq M.Hüseynzadə ərazidəki partizan hərəkatının "Mixaylo" ləqəbli fəal iştirakçısı oldu. Sloveniya partizanı, hərbi tarixçi Stanko Petelin onu bütün 9-cu korpusdakı ən yaxşı diversantlardan biri adlandırırdı. Partizan Məhər Məmmədov öz xatirələrində

yazırdı: "Bu, 1944-cü ilin əvvəlində olmuşdu. Almanlar, yerli əhali və əsirlər o zaman bizə o qədər yaxşı tanış olmayan Mixaylo adını tez-tez çəkirdilər. O zaman bu, bizim üçün sirr idi. Amma tezliklə hər şey aydınlaşdı. Biz Mixaylo ilə əl-ələ faşistlərlə mübarizə aparmaq şərəfinə nail olduq".

Yanvarın ortalarında Mixaylo öz döyüşçüləri ilə əhəmiyyətli topoqrafik xəritələri ələ keçirdilər. Növbəti ayda M.Hüseynzadə alman zabiti formasında alman kazarmalarına daxil oldu, yanğınsöndürənlərə mina döşəyib mərkəzi binanı partlatdı.

Aprelin 2-də Mehdi Hüseynzadə Mirdaməd Seyidovla birgə Triest şəhəri yaxınlığında yerləşən Opçine yaşayış məntəqəsindəki kinoteatr binasını kinoseans zamanı partlatdı. Onlar kinoteatr zalına girərək gözə çarpmadan kürsünün altına mina quraşdırıb binanı tərk etdilər. Partlayış nəticəsində 80 nəfər öldü, 60 nəfər ağır, eyni zamanda 200 alman əsgəri yüngül yaralandı. Onlardan 40 nəfəri hərbi hospitalda aldıqları yaralardan öldü. Həmin ay, aprelin 22-də Mixaylo ikinci böyük diversiyanı həyata keçirdi. Bia Qeqa küçəsində əsgər evi olan alman restoranının binasını partladır. Alman əsgəri paltarında M.Hüseynzadə və Mirdaməd Seyidov restorana girib əvvəlcədən detonatorların ampulalarını əzdilər. Onlar stol arxasında iki yer tutub, stolun altında partlayıcı çantanı qoyub, zaldan talon almaq adı altında çıxıb oradan da küçəyə çıxdılar. Alman restoranı havaya uçduqdan sonra hitlerçilər iki sutka ərzində dağıntıların altından ölüləri və yaralıları çıxarırdılar. İtaliyan faşist qəzeti olan "İl Pikkolo" nun 23 apreldə dərc etdiyi məqalədə deyilirdi: "Dünən, şənbə günü kommunist elementləri Triestdəki alman əsgər kazarmalarına terrorçu sui-qəsdi törətdilər ki, bu da bir neçə alman əsgərinin və italiyan vətəndaşının həyatına son qoydu". Partlayışı törətməkdə təqsirləndirilən və elə bu binada yerləşən bərbərxanadakı insanlar gestapoçular tərəfindən tutuldu və edam edildi.

Yenə Triestdə Mixaylo "İl Pikkolo" qəzetinin redaksiyasını və tipoqrafiyasını partlatdı. Bir müddət keçəndən sonra Mehdi öz yoldaşı Əli Tağıyev və antifaşist Hans Frislə daha bir diversiya törətdilər, 24 vaqondan ibarət alman əmlak qatarının keçdiyi Postoyn dəmiryolu stansiyası yaxınlığındakı körpünü partlatdılar.

Partizan qərargahının qərarına əsasən, Mixaylo və M.Seyidov gestapo mayoru N.Kertneri edam etdilər. Yayın sonunda diviziya rəhbərliyinin tapşırığı ilə M.Hüseynzadə və Əkbər Ağayevlə birgə partizan vzvodunun başında geri çəkilən alman hissələrinə qarşı əməliyyat apardı. Döyüşdə çoxlu alman əsgər və zabiti həlak oldu, düşmənin 10-dan çox yük maşını məhv edildi.

Sentyabr ayında Mehdi Hüseynzadə alman texniki xidmət zabiti formasında düşmən aerodromuna daxil oldu və yavaş sürətli minanın köməyi ilə 2 təyyarə və 25 avtomaşın partlatdı. Həmin ay Mixaylo daha bir diversiya həyata keçirdi. O, alman zabiti formasında motosiklə silahsız tədris marşında olan faşist rotasına yaxınlaşdı və avtomatla 20-dən artıq düşmən əsgərini güllələyib bir anda yoxa çıxdı. Mixaylo Qoriça şəhərində hərbi sursayla dolu alman maşınını qaçırmağa müvəffəq oldu. O, Opçine şəhərində yüksək gərginlikli elektrik stansiyasının transformatorunu partlatdı.

Oktyabr ayında Mixaylonun komandanlığı altında partizanlar yerli həbsxanaya hücum etdilər. Hüseynzadə vermaxt zabiti formasında alman əsgəri formasında olan iki partizanla birgə "hərbi əsirlərin" əhatəsində alman həbsxanasının darvazasına yaxınlaşdılar və keşikçidən qapını açmağı tələb etdilər. Həbsxananın ərazisinə daxil olan kimi Hüseynzadə və yoldaşları keşikçilərin silahını aldılar və bütün kameraların qapısını açıb 700 hərbi əsiri, o cümlədən 147 sovet hərbçisini azad etdilər. Həbsxana rəisi də tutularaq partizan qərargahına gətirildi.

Növbəti gün faşist radiosu xəbər verdi ki, guya həbsxanaya 3 minlik partizan diviziyası hücum edib. Bundan əlavə aksiyaların biri zamanı Mixaylo banka girərək 1 milyon italyan lirəsi götürmüş və partizan qərargahına təhvil vermişdi.

M.Hüseynzadə uzaq Adriatikdə döyüşərkən öz vətənini xatırlamaqdan yorulmurdu. Öz şeirlərindən birində vətənini xüsusi istiqanlılıqla yad edirdi:

Kaş ki, mən bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni;
Aşaraq o qarlı, uca dağları,
Vətən torpağına salaydı məni...

Onun 1943-cü ildə vətəndən uzaqda yazdığı 1 bəndlik şeir vətəninə olan məhəbbətini xarakterizə edir:

Süd verib qoynunda bəslədin məni,
Mən sənin gözündə qurbanam, Vətən!
Qoymaram incidə yad ellər səni,
Bil ki, etibarlı oğlunam, Vətən!

Yuqoslaviya xalq-azadlıq ordusunun 9-cu korpusunun tapşırığı ilə Mixaylo 31-ci diviziyanın qərargahı nəzdində diversiya-kəşfiyyat qrupu yaratdı və ona başçılıq etdi. Cavad Həkimlinin xatirələrində deyilir: "Mehdi elə qorxu yaratmışdı ki, almanlar şəhərə tək çıxmaqdan qorxurdular və onlara elə gəlirdi ki, Mixaylo nəhəng bir dəstənin adıdır və ona pəhləvan rəhbərlik edir". Almanlar başına 400 min lirə mükafat təyin etmələrinə baxmayaraq Mehdi Hüseynzadə ələ keçməz olaraq qalırdı. Yuqoslaviyada tapılan sənədlərin birində deyilirdi: "Hesab etmək olar ki, onun fəaliyyəti zamanı 1000-ə yaxın alman öldürülmüşdü və bunların içində əsasən zabitlər idi. Faşistlər necə olursa olsun, onun başını əldə etmək istəyirdilər". Cavad Həkimlinin xatirələrinə görə gestapo mayoru Şultsun

dəstəsi bir dəfə Sejanda kəndli formasında olan Mixaylonu tutmuşdu. Mehdi Hüseynzadə özünü rəssam kimi qələmə verdi və özünü elə təbii apardı ki, heç kim onun kim olduğunu başa düşmədi. Sonunda, 15 gün sonra almanların partizanları axtarmağa getməyindən istifadə edib, keçikçi alman yefreytorunu öldürüb tüfəngi ələ keçirib kazarmanı dağıdıb qaçmışdı.

Mehdi Hüseynzadə 1944-cü ilin noyabrın 2-də tapşırıqdan Çepovan yaşayış məntəqəsində yerləşən 9-cu korpun qərargahına qayıdarkən Vitovlye kəndində həlak oldu.

Onun həlak olması haqqında bir neçə fərziyyə var. Ən birinci versiya Mixaylonun gizləndiyi evin partizan oğlunun danışdıqlarına əsaslanır. O, məlumat verir ki, onların evini qəfildən almanlar mühasirəyə alıb. Bu zaman Mehdi Hüseynzadənin əlində 2 limonka-qranat və 5 gilizli tapança var idi. Mixaylo onlarla döyüşə girdi və atışmağa başladı. Düşmən evə soxulanda Mixaylo onların dəstəsinə 2 qranat atdı. Yaranan qarışıqlıqdan istifadə edib, arxa pəncərədən tullanıb qaçmağa başladı. Onu görən almanlar təqib etməyə başladılar. Mixaylo ayaqlarını geniş aralayıb tapançasını çıxardı və öz ürəyinə atəş açdı.

Sloveniya versiyasına görə, 1944-cü ilin 1 noyabrında Mixaylo və 3 sloven diversantı-İvan Suliç, Adam Zorn və Yordan Qoryan 9-cu korpusun qərargahına gedərkən Vitovlye kəndində dayandılar. Burada və Rençe kəndində partizanların konspirativ bazarları var idi. Onlar bundan almanların nəzarətində olan ərazilərə tapşırığa gedərkən istifadə edirdilər. Hadisələrin iştirakçısı A.Zornun şahidliyinə görə, 8 nəfər partizanın əvvəlcədən gəlib gizləndiyi pəyə gecə qəfildən almanlar tərəfindən mühasirəyə alındı. Mixaylo və sloveniyalı Dreykeç (əsl adı: Andrey Komel) mühasirədən çıxıb qaçmağa çalışdılar, amma avtomatdan açılan güllələrlə vuruldular.

A.Zornun versiyasına görə, həmin gecə almanlar kənddə rekvizit aksiya keçirdilər. A.Zornun özü başqa partizanla birgə almanlar tərəfindən ələ keçirildi. Qalanları isə tapılmadı.

Sovet Bazovitsk batalyonunun qərargah rəisi və Mixaylonun yaxın dostu Cavad Həkimlinin hekayəti isə bəzi detalları ilə fərqlənir. Almanlar onları mühasirəyə alan zaman Mixaylo qaçmağa cəhd göstərərkən yaralanıb və əsir düşməmək üçün özünü vurub. C.Həkimli belə güman edir ki, partizanları yerli əhalidən biri satıb.

Mehdi Hüseynzadənin nəşi yerli əhali tərəfindən dəfn edildi, sonra 18-ci sloveniya zərbəçi Bazovitsk briqadasının 2-ci rus batalyonunun partizanları tərəfindən Çenovan kəndinin qəbiristanlığında dəfn olundu. Onun qəbri üstündə taxta piramida qoyuldu və ona bərkidilən dəmir lövhənin üstündə yazıldı: "Burada Mehdi Hüseynov (Mixaylo) dəfn olunmuşdur... 1944-cü ildə Vipavedə qəhrəmancasına həlak olmuşdur".

Yuqoslaviya xalq azadlıq ordusunun 9-cu korpusunun 30-cu diviziyasının komandanlığının 9 noyabr 1944-cü il məlumatına əsasən, Mehdi Hüseynzadənin həlak olduğu ərəfədə, oktyabrın 30-dan 31-nə keçən gecə almanlar öz bölmələrini Tronovsk ovalığı ətəyində partizanların nəzarəti altında olan ərazilərə hücum etmək üçün planlı şəkildə yerləşdirdilər. Alman əməliyyatı 31 oktyabrda Qoritsa-Aydovşçina yolundan qabaqcıl dəstələrin Vitovlye və Şmihel kəndlərinə tökülməsi ilə başlandı. 31 oktyabrdan 1 noyabra keçən gecə 19-cu Sloveniya briqadasının patrulu Vitovlyedən Trnovo-Lokveyə gedən yolda alman hərbçilərinin olduğunu qeydə aldı. Bu zaman Vitovlyenin özünə partizanlar tərəfindən göndərilmiş patrul Müqəddəs Boqoridisa kilsəsinin yanında almanlarla toqquşdu. 1-2 noyabrda almanlar Trnovsk ovalığının ətəklərinə girmək üçün dəfələrlə cəhd etdilər. Trnovo kəndi istiqamətində döyüşlər 6 noyabra qədər davam etdi.

Mehdi Hüseynzadənin YXAO cərgələrində rolu və fəaliyyəti uzun müddət Sovet İttifaqının geniş ictimaiyyətinə məlum deyildi. 1956-cı ilin 31 mayında "Krasnaya Zvezda" ("Qırmızı Ulduz") qəzeti Keçmiş Partizan V.Sokolovun xatirələrinə əsaslanaraq Mixaylonun hünərlərinə həsr olunmuş "Partizan igidliyi" məqaləsini dərc etdi. Sonralar, həmin ilin oktyabrında başqa bir keçmiş partizan – Q.A.Jilyayev "Mehdi Hüseynzadə (Mixaylo) haqqında xatirələr" yazdı və əlyazmanı Azərbaycan SSR EA-nın tarix institutuna verdi. Tez bir zamanda institut tərəfindən partizanın rəşadəti haqqında əhəmiyyətli miqdarda material toplandı və bununla əlaqədar Azərbaycan KP MK-nın birinci katibi İmam Mustafayev Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinə gizli məktubla müraciət etdi. Azərbaycan SSR DTK əvvəlcə leytenant Mehdi Hüseynzadənin İkinci Dünya müharibəsi dövründə Yuqoslaviya və İtaliya ərazisində etdiyi qəhrəmanlığı təsdiq edən gizli axtarış aparmağa başladı. F.Kopılov Azərbaycan SSR MK-ya yazırdı: "SSRİ-nin Yuqoslaviyadakı səfirliyi Hüseynzadənin Yuqoslaviya partizan birliyindəki fəaliyyətini araşdırmaq və sənədləşdirmək üçün Yuqoslaviyanın münasib orqanlarına xahişlərlə müraciət etmişdi". Araşdırma Sovet leytenantının rəşadətini təsdiq edən məlumatları almaqla başa çatdı. Yuqoslavlar tərəfindən həm də əlavə sənədlər təqdim edildi. Nəticədə SSRİ Ali Soveti Rəyasət Heyətinin 11 aprel 1957-ci il tarixli əmri ilə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi (ölümündən sonra).

1957-ci ildə başda S.A.Kovpak olmaqla partizan və antifaşist hərəkatının iştirakçılarından ibarət nümayəndə heyəti Yuqoslaviyaya səfər edəndə bu heyətin tərkibində Sloveniya ərazisində fəaliyyət göstərən sovet partizan batalyonunun komandiri Anatoli Dyaçenko da var idi. O, Mehdi Hüseynzadənin qəbrini ziyarətindən belə təəssüratla ayrılmışdı:

“Yuqoslaviya xalqı bizim Mehdinin xatirəsini əbədiləşdirmək üçün onun qəbrində gözəl bir abidə ucaltmışlar. Qəbir tər güllərlə bəzədilmişdir. Gülləri hər gün onun qəhrəman və cəsur əməlləri haqqında dəfələrlə eşidən yerli əhali gətirir. Yuqoslaviyanın şərəfli azərbaycanlı oğlu haqqında hekayətləri “Bizim dostumuz Mixaylo” sözləri ilə başlayır”.

7 dekabr 2012-ci ildə yazıçı P.Ameliettinin Sloveniyada əfsanəvi partizan Mehdi Hüseynzadə haqqında yazdığı “Bir nəfər hamı üçün və ya Mixaylonun intiqamı” adlı romanının təqdimatı baş tutdu. Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Sloveniyadakı səfirliyinin müvəqqəti işlər vəkili Azər Xudiyev Mehdi Hüseynzadənin İkinci Dünya müharibəsi illərindəki rəşadətindən ətraflı danışdı. Kitabın müəllifi toplaşanları romanın məzmunu ilə tanış etdi. Daha sonra “Onun təxəllüsü Mixaylo idi” adlı sənədli film nümayiş etdirildi.

Yenilməz Mixaylo öz şücaəti və qəhrəmanlığı ilə həlledici döyüşlərdə uğurlu qalibiyyət əldə etmişdir. O, bu addımı ilə Azərbaycan xalqının qəhramanlığını nümayiş etdirmişdir. Bu məqsədlə Mehdi Hüseynzadə əzminin tərənnümü üçün *“Əfsanəvi Mixaylo”* başlığı altında oxucularla **icmal** keçirilə bilər. Əvvəlcə kitabxanaçı icmal etdiyi hər bir kitabı, eləcə də Şəmistan Nəzirlinin “Əfsanəvi Mixaylo” adlı kitabını oxuculara göstərir, onun tərtibatı, nəşriyyatı, mündəricatı haqqında məlumat verir. Tədbirə dəvət edilənlər arasında yazıçı-jurnalist Şəmistan Nəzirlinin də olması məqsədəuyğundur. İlk olaraq kitabxanaçı kitabda toplanmış tarixi hadisələr, qəhrəmana həsr olunmuş şeirlər haqqında məlumat verir.

*Kitabxanaçı:* Sorağını alsam belə bu gün sənin uzaqlardan,
Məhəbbətə hasar çəkməz nə ayrılıq, nə də zaman...
Can qardaşım! Sən mənimsən, sən mənim partizanımsan,

Yeni günlər yaradanım, yeni tarix yazanımsan!

**Səməd Vurğun,**
*Xalq şairi*

"Əfsanəvi Mixaylo" əsərində Mehdinin cəsurluğu, qeyri-adi igidliyi, yeni arxiv materialları və nadir sənədlər əsasında yazılıb. Təkcə vətənimizdə deyil, Yuqoslaviya, İtaliya, Fransa və b. Avropa ölkələrində də yenilməz qəhrəman kimi tanınan Mixaylo – Mehdi Hüseynzadə xalqımıza baş ucalığı gətirib. Ş.Nəzirli yeni kitabında həm də Mehdinin ilk gənclik illərindən-bacılarının, məktəb və tələbə dostlarının xatirələrinə xüsusi yer verib. Cəmi 26 il yaşayan Mehdi şair və rəssam, hazırcavab bir gənc idi. Əsərdə onun ilk gəncliyində və əsirlikdə olanda "Qürbətzadə" imzası ilə yazdığı şeirlər və 1935-ci ildə qələmə aldığı poema da ilk dəfə oxuculara təqdim olunur.

İcmalı keçirtmək üçün aşağıdakı iki kitabdan da istifadə etmək olar: tərtibçiləri F.A.Aslanova, T.K.Musayeva aid olan "Məktublar 1941-1945-ci illər müharibəsinin canlı tarixidir" kitabı, digəri isə Viktor Suvorovun "Sonuncu Respublika" kitabıdır.

Azərbaycanın qəhrəman oğlu Mehdi Hüseynzadənin keçdiyi ömür yolunu gənc nəslə tanıtmaq məqsədilə kitabxanada görüləcək tədbirlərdən biri də *"Qəhrəmanlar necə varsa"* adlanan **şeir müsabiqəsidir**. Bunun üçün kitabxanaçı müxtəlif yaşdakı məktəbliləri kitabxanaya dəvət edir. Qəhrəmana həsr olunmuş şeirlərlə onları tanış edir. Təyin olunmuş vaxtda kitabxananın oxu zalına toplanmış iştirakçılara kitabxanaçı sözü gedən qəhrəmanımız haqqında məlumat verir və sözlərinə Mehdi Hüseynzadənin öz misraları ilə başlayır.

***Kitabxanaçı:*** Nə olur bir sarı yapraq olaydım
Sabahın yelləri alaydı məni.
Aşıb bəyaz qarlı hündür dağları

Vətən torpağına salaydı məni...

Dəyərli məlumatlardan sonra iştirakçılar ədiblərin Mehdi Hüseynzadəyə həsr olunmuş şeirlərindən parçalar deməyə başlayırlar.

*I iştirakçı*: Bürüyüb güllü aləmi, tutub sədası Mehdinin,
Tək başına bir orduyla çoxdu davası Mehdinin
Karrantinin ürəyinə dərdi-bəlası Mehdinin,
Hitlerə qəbir qazdı alman libası Mehdinin...

*Bayram Qıraqkəsəmənli*

*II iştirakçı:* Üzür "Mehdi" gəmisi
Dünya dənizlərində.
Üzür onunla qoşa
Vüsal haraylı qəlbi
Doğma, əzizlərin də...

*Səyavuş Sərxanlı*

*III iştirakçı:* Xəzərdən, Bakıdan uzaq ölkədə,
Dünyada tanıtdın Azərbaycanı.
Əgər yaşasaydın indi bəlkə də,
Min qat artıq idi şöhrətin, şanın...

*Xuraman Xanım*

*Tədbirin sonunda iştirakçılar mükafatlandırılır.*

Azərbaycanın qəhrəman övladı M.Hüseynzadənin 100 illik yubileyi münasibətilə rəsm müsabiqəsi də keçirilə bilər. Bunun üçün iştirakçılar çəkdikləri rəsmlərini tədbirdən öncə münsiflər heyətinə təqdim edirlər. Əsasən 1941-1945-ci illərin qanlı-qadalı müharibəsini, qəhrəmanlarımızı, mübarizə səhnələrini və sözügüdən qəhrəmanımız M.Hüseynzadənin təsvirini əks etdirirlər.

Görkəmli şəxsiyyət, tarixin şanlı səhifəsi olan Mehdi Hüseynzadənin 100 illik yubileyi ilə əlaqədar olaraq *"Könüllərin nəğməsində yaşayarsan"* adlı **anım gecəsi** keçirilə

bilər. Gecədə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, müharibə iştirakçıları, tarixçilər, oxucular, məktəblilər və ümumilikdə vətənə, yurda dəyər verənlər toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına Mehdi Hüseynzadə haqqında slayd təqdim olunur. Slayddan sonra aparıcılar səhnəyə yaxınlaşır.

***I aparıcı:*** Oğullar var ki, düşdüyü şərait onun qəhrəmanlığına meydan açır. Oğullar var ki, anadan qəhrəman doğulur. İnamla demək olar ki, Mehdi ikincilərdəndir. “Mixaylo” həqiqətən əfsanəvi qəhrəman olmuşdur. Onun göstərdiyi igidliklərin say-hesabını sadalamağa ehtiyac yoxdur. Bütün keçmiş Yuqoslaviya dövlətlərinin əksəriyyətində Mehdi Hüseynzadə hörmətlə yad edilir, onun qəhrəmanlığı böyük iftixarla yada salınır. Maraqlıdır ki, o əksər kəşfiyyatlara, ən çətin tapşırıqların yerinə yetirilməsinə, partizanlarının həyatını təhlükə qarşısında qoymamaq üçün təkbaşına gedirmiş. Alman, fransız, ispan, italyan, rus dillərini mükəmməl bilən “Mixaylo” bütün tapşırıqları nümunəvi yerinə yetirirmiş. Onun haqqında çox maraqlı tarixi əsərlər və məqalələr yazılmışdır. Bunlardan biri 2 cilddən ibarət çox mükəmməl tarixi əsər olan sloveniyalı tanınmış yazıçı Peter Amalettinin “Mixaylonun təkbaşına qisası” adlı povestidir. Bu tarixi əsərdə “Mixaylo”nun bütün qəhrəmanlıqları dolğun şəkildə öz əksini tapmışdır. Onun bütün qəhrəmanlıq yollarını nəzərdən keçirdikdə, xalqımızın bu igid oğlu ilə fəxr edirik. Sloven xalqının bu igid qəhrəmana böyük məhəbbətini ifadə etmək üçün bu yaxınlarda paytaxt Lyublyana şəhərində Mehdi Hüseynzadənin möhtəşəm abidəsinin açılışı olacaqdır. Sloveniyanın məşhur “Roqaşka” tibbi-istirahət mərkəzində dincələn və məşhur “Donat” mineral suyu ilə müalicə olunan həmyerlilərimiz Çepovan qəsəbəsində qardaşlıq

məzarında uyuyan xalqımızın qəhrəman oğlu Mehdi Hüseynzadənin qəbrini də ziyarət etməyi unutmamalıdırlar.

***II aparıcı:*** Silah dostları qeyri-adi rəşadətə, çevikliyə, zirəkliyə və böyük biliyə malik olan mərd azərbaycanlı partizanın həyatından çoxlu döyüş əhvalatlarını öz yaddaşlarında saxlamışdılar. M.Hüseynzadə dəfələrlə alman zabiti, yaxud əsgəri, italyan karabineri, yaxud kəndli libasını geyərək düşmən yuvasına girmişdir. O, bir neçə dildə yaxşı danışır, istehkamçı işini bilirdi, avtomaşını çox yaxşı sürürdü. Lakin ən başlıcası o idi ki, bu qəhrəmanın sinəsində sovet vətəninə məhəbbətlə və faşist işğalçılarına qarşı nifrətlə dolu qızğın və nəcib bir ürək döyünürdü.

***I aparıcı:*** Qəhrəmanı tutmaq üçün olduqca böyük mükafat təyin olunmuşdu. Cəsur partizan düşmən mövqeyinə gedir, qiymətli məlumat toplayırdı. 1944-cü ilin sonlarında Mehdi yeni bir cəsarətli əməliyyatı yerinə yetirdi.

...Faşistlərin kef çəkdikləri zabit meyxanası yanında bir maşın dayandı. Maşından Hitler ordusu kapitanı libasında, əlində çamadan olan Hüseynzadə düşdü. O, salonda göründü. Mehdi içib dəmlənən məclisi salamlayaraq gətirdiyi çamadanı divarın yanına qoyub stola yaxın oturdu. Bir qədər keçdikdən sonra yalançı zabit buranı tərk edib getdi. Öz sloveniyalı yoldaşı ilə dağlara doğru gedən yolda Mehdi partlayış səsi eşitdi. Bu dəfə çoxlu faşist zabiti ölmüş və yaralanmışdı.

Doğma torpaqdan uzaqlarda, Adriatik dənizi sahillərində həmyerlimiz onlarla cəsarətli əməliyyatlar aparmış, kəşfiyyat-təxribat qrupuna rəhbərlik etmişdir. Mehdi Hüseynzadə yüzlərlə hitlerçini məhv etmiş, qatarları yoldan çıxarmış, körpüləri dağıtmış, avtomaşınları və təyyarələri partlatmışdır. Bütün bunlar faşist işğalçıları üzərində qələbəyə qəhrəman Mehdinin döyüş köməyi idi.

***II aparıcı:*** Mehdi Hüseynzadənin iki nəhəng diversiya aktı (2-22 aprel, 1944-cü il) haqqında məlumatlar "1941-1945-ci illərin xalq azadlıq müharibəsi xronologiyası"na daxil edilmişdir. 9-cu korpusun 31-ci diviziyası qərargahlarının bu aksiyalar haqqında məlumatları Belqrad hərbi-tarix institutu tərəfindən dərc edilmiş, Yuqoslaviyadakı xalq-azadlıq müharibəsi zamanı YXAO haqqında sənədlər toplusunda nümayiş etdirilmişdir.

1944-cü ilin 2 aprelindən müharibənin sonuna qədər xalq azadlıq ordusunun və Sloveniya partizan dəstələrinin nəzdində sovet hərbi missiyasının qrupu fəaliyyət göstərirdi. Ona SSRİ Xalq Müdafiə Komissarlığının Baş Kəşfiyyat Agentliyinin kadr kəşfiyyatçısı missiya rəisinin köməkçisi, diversiya-kəşfiyyat fəaliyyəti mütəxəssisi polkovnik Nikolay Kirilloviç Patraxalçev rəhbərlik edirdi. 6 iyunda daha bir BKA-nın əməkdaşı İvan Petroviç Rıbaçenkov rabitəçi Leonidovla bir araya gəldi. Rıbaçenkov və Leonidov 9-cu korpusun qərargahında möhkəmləndirildi. Onların vəzifəsi sovet hərbi köməyi çərçivəsində yüklərin qəbulunu təşkil etmək, rəqib haqqında məlumatlar yığmaq və hərbi mövzular üzrə Sloveniya komandirlərinə məsləhət vermək idi.

***I aparıcı:*** Mehdi Hüseynzadənin qrupu 9-cu korpusun ayrıca diversiya bölməsi qismində fəaliyyət göstərirdi. Bu məlumatları Qorişka bölgəsindəki 9-cu diversiya-kəşfiyyat qrupunun rəhbəri ilə Mehdi Hüseynzadənin kəşfiyyat qrupu arasında konspirativ kuryer əlaqəsi yaratmaq tapşırılan Simon Viçiç də təsdiq edir. Viçiç qeyd edir ki, Mehdi Hüseynzadə "…əsl kəşfiyyatçı tipi idi. Heç zaman adını demirdi. O həmişə sadəcə Mixaylo idi. Heç kəs onun haradan gəldiyini bilmirdi. O ancaq "Çar" ilə danışırdı". 30 oktyabr 1944-cü ildə Rençe kəndindəki görüş zamanı M.Hüseynzadə və "Çar", sovet diversiya qrupu ilə "Çar"ın dəstəsinin birləşməsinin məqsədəuyğunluğunu müzakirə etdilər.

Bu məsələnin tam həlli üçün Sovet hərbi missiyasının razılığını və 9-cu korpus qərargahının sanksiyasını almaq tələb olunurdu.
***II aparıcı:*** Mixaylo-Mehdi Hüseynzadənin qəhrəmanlığı bir ailəyə, bir obaya yox, keçmiş sovetlər ölkəsinə başucalığı gətirdi. İyirmi altı yaşında həlak olan rəssam, şair Mehdi və faşistlərə qənim kəsilən gözəgörünməz kəşfiyyatçı Mixaylo çox keçmədi ki, Bakıda qranit heykəldə əbədiləşdi. Paytaxtımızın Bakıxanov küçəsinin yaxınlığındakı bağçada əlində qumbara sıxmış döyüşçü cəsarətlə irəli şığıyır. Çiynindəki plaş-çadır tunc qırışlarda əbədi donmuşdur. Qartal qanadları gərilən igidi düşmən üzərinə növbəti hücum zamanı xalq rəssamı Fuad Əbdürrəhmanov belə əbədiləşdirmişdir.
**I aparıcı:** Təxəllüsü "Mixaylo" (2008) "Salnamə" sənədli filmlər studiyası tərəfindən istehsal olunan rejissor Tahir Əliyevin eyni adlı filmi əsasında çəkilib. Film Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin həyatı ilə bağlı faktlardan və əvvəllər məlum olmayan hadisələr əsasında qurulmuşdur. Filmdə qəhrəmanın keçdiyi şərəfli döyüş yolu bir daha vərəqlənir. Film Mehdi Hüseynzadənin 90 illiyinə həsr edilib. Filmdə Mehdi Hüseynzadənin 10 nəfərə yaxın partizan yoldaşı lentə alınıb. Çəkilişlər üç aya yaxın müddətdə davam edib. 2010-cu ildə film Sloveniyada nümayiş etdirilib.

Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə öz qəhrəmanlıqları ilə xalqın qəlbində özünə əbədi heykəl ucaldıb. O, xalqın qəlbində daim yaşayacaqdır. Qəhrəmanın qəbir daşı üstündə bu sözlər həkk olunmuşdur: "Rahat yat, Azərbaycan xalqının qəhrəmanı, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır".

## Ədəbiyyat siyahısı

### *Mehdi Hüseynzadənin əsərləri*


A dost : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 371.

Adriya sahillərində : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.377.

Ağ qoyunun macərası : poema // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 379-388.

Ağlaram : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.371.

And : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 369.

Ay qız : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.375.

Deyiniz : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 373.

Dəli ceyran : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.376.

Görən olsaydı : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.372-373.

Mən öz Xəzərimə vurğunam : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.368.

Mənim : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.374.

Nə olar bir sarı yarpaq olardım : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.370.

Rübailər // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 378.

Tərlanım : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.370.

Yar gəlir dedim : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 372.

***Haqqında kitablarda***

Hüseynzadə Mehdi Hənifə oğlu // Novxanı : Sərvətimiz şəxsiyyətlərimizdir. - Bakı: Zərdabi LTD, 2010. – S.119-130.

***Haqqında mətbuatda***

**Abbasov Z.** Slavyan xalqı Mixaylonun xatirəsini əziz tutur : Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə haqqında // Respublika. - 2012. - 20 oktyabr. - № 236. - S. 7.

**Əliyev Z.** Mixaylo fırçasının gücü : Əfsanəvi partizan Mehdi Hüseynzadənin bədii irsi haqqında // Mədəniyyət. - 2018. - 22 avqust. - № 61. - S. 12.

**Əliyeva A.** Yazılsın tarixə qəhrəman adın : Mehdi Hüseynzadə - 100 // Mədəniyyət. - 2018. - 26 oktyabr. - № 78. - S. 6.

**Mehdi Hüseynzadə :** Azərbaycanın Qızıl Ulduzları // Savalan. - 2015. - 6-8 oktyabr. - № 66. - S. 2. ; 9-12 oktyabr. - № 67. - S. 2.

**Mehdi Hüseynzadənin** 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (23 iyun 2018-ci il) // Xalq qəzeti. - 2018. - 24 iyun. - № 138. - S. 1.

**Məhərrəmov V.** Qəhrəmanlıq - əbədiyyətə böyük hərflərlə yazılmış hünər : Mehdi Hüseynzadə - 95 // Azərbaycan ordusu. - 2013. - 30 dekabr. - № 66. - S. 4.

**Məhərrəmova T.** Ölməz Mixaylo : keşməkeşli həyat yaşamış Nodar Şaşıqoğlu "son nəğməsi"ni də soykökü ilə bağlı olduğu Azərbaycanda oxumuşdu // Kaspi. - 2017. - 5 oktyabr. - № 164. - S. 7.

**Musaoğlu B.** Əfsanəvi qəhrəmana ehtiram : Mehdi Hüseynzadə - 95 // Azərbaycan ordusu. - 2013. - 30 noyabr. - № 57. - S. 4.

**Mükərrəmoğlu M.** "Mixoylo"nu yaşadan film : Mehdi Hüseynzadə - 100 // Xalq qəzeti. - 2018. - 28 iyul. - № 166. - S. 7.
Sloven yazıçısı Mehdi Hüseynzadədən roman yazıb // Paritet. - 2012. - 8-10 dekabr. - № 131. - S. 16.

***Mehdi Hüseynzadəyə həsr olunmuş bədii əsərlər***

***Kitab***

**Qasımov İ., Seyidbəyli H.** Uzaq sahillərdə. – Bakı : Gənclik, 1974. – 310 s. – kiril qrafikası ilə.

**Nəzirli Ş.** Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2018. – 392 s.

***Kitablarda***

**Allahverdiyev M.** Ölməzlik : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 320.

**Araslı B.** Şimşək : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 345-346.

**Babayev A.** Əbədiyyət nəğməsi : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 304-306.

**Balasadıqoğlu H.** Mehdiyə : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 324.

**Cəmil Ə.** Heykəl : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 355.

**Dilbazi M.** İgid ölər adı qalar : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.290-291.

**Fərzəli Ə.** Torpaqdan səs gəlir : poema // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 328-345.

**Hüseynzadə S.** Mehdi : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 321.

**Xəndan R.Z.** Qələbə günündə : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 352-354.

**Xəzri N.** Qoy rahat uyusun! ; Qayıtdın : şeirlər // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 294-297.

**Xuraman.** Əgər yaşasaydın : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 351-352. ; Xuraman. Anasız qalan dünyam. – Bakı : Nərgiz, 2008. – S. 34.

**İlham Ə.** Əbədiyyət nəğməsi : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 323.

**Jilayev Q.** Xatirə : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 313-314. – Müəllif Mehdi Hüseynzadənin cəbhə dostudur.

**Katuxlu S.** Partizan Mehdi : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 364-365.

**Kürçaylı Ə**. Mehdi haqqında ballada // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 315-316.

**Qafarov V.** Mehdi haqqında ballada // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 357-359.

**Qarakəsmənli B,** Mehdinin : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 317.

**Qədimov B**. Ölməz qəhrəman : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 363.

**Qurban T.** Canlı heykəl : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 318-319.

**Ləzgiyev V.** Mehdi : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 349-350.

**Mütəllibov T**. Tunc çiçəklər : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 324-325.

**Nicat Ə.** Sən bizimsən : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 346-348.

**Rüstəm S.** Eloğluma : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 292-293.

**Rüstəm S.** Mehdini yad etdim şeir // Seçilmiş əsərləri 3 cilddə. . - Bakı : Şərq-Qərb, 2005. - C.1. - S. 80-81.

**Rüstəmzadə V.** Adria, layla çal : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 356.

**Rza X. (Ulutürk).** Əziz xatirə ; Üfüqlər yanan yerdə : şeirlər // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 307-309.

**Sail M. Bizimdir** : qəzəl // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 322.

**Sərxanlı S.** Mixaylo balladası // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 298-303.

**Şəfa S**. Unudulmaz qəhrəman : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S.325-326.

**Şodiyev F.** Mehdi, salam : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 360-362.

**Tapdıq İ.** Şanlı ömrün əfsanəsi : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 310.

**Vəkil Ə.** Adriatik sahillərində : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 311-313.3

**Vəli S.** Sizdən ayrılalı vuruşuram mən : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 350-351.

**Yəhyayev A.** Səni : şeir // Nəzirli Ş. Əfsanəvi Mixaylo. – Bakı : Qələm, 2013. – S. 365.

**Yazılsın tarixə qəhrəman adın**
(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 52
Çapa imzalanmışdır: 05.10.2018
Tirajı:100
Pulsuz